# Azərbaycan demokratik maarifçilik fəlsəfəsində müasirlik ideyaları

**Üzeyir Qara oğlu Balakişiyev**
*Gəncə Dövlət Universitetinin baş müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
**Yaqut Şahmalı qızı Quliyeva**
*Gəncə Dövlət Universitetinin baş müəllimi*
**E-mail:** vahid-o@mail.ru

**Rəyçilər:** f.e.d. S.Y. Hüseynov,
f.ü.f.d., dos.V.A. Ömərov

**Açar sözlər:** Azərbaycan, demokratik maarifçiləri, fəlsəfi dünyagörüşü, müasirlik, milli özünüdərk, vətənpərvərlik

**Ключевые слова:** Азербайджан, демократические просветители, философское мировоззрение, современность, национальное самосознание, патриотизм

**Key words:** Azerbaijan, the democratic enlightenment, the philosophical worldview, modernity, national identity, patriotism

Məlumdur ki, maarifçilik Avropada yaranmışdır. Avropa və Azərbaycan maarifçiliyinin arasında əlaqələrin bir sıra mühüm aspektləri vardır

Kanta görə, maarifçilik insanın öz günahları üzündən düşdüyü yeniyetməlik vəziyyətindən çıxış yoludur. Yeniyetməlik kənardan idarə olunmadan öz ağlından istifadə edə bilmək bacarığının olmamasıdır. Öz günahı üzündən həddi-buluğa çatmama ağılın yetərsizliyindən deyil, digərinin onu kənardan idarə etmədiyi təqdirdə, ondan (yəni ağıldan) faydalanmasında qətiyyətin və cəsarətin çatışmazlığındandır (12). Maarifçiliyin də, nəticə etibarilə, əsas çağırışı bundan ibarətdir. Kant bir çox məsələlərdə dahidir, lakin onun dahiliyi ağıl, tarixi hermenevtika və əxlaqın təhlilində bir daha özünü göstərir. Kantın, bütövlükdə, fəlsəfəsi, onun əxlaq fəlsəfəsi, "şübhələri və tənqidləri" bu gün müasir fəlsəfə adlandırdığımız dövrə ciddi təsir göstərmiş Maarifçilik fəlsəfəsinin ayrılmaz hissəsidir. Maarifçilik fəlsəfəsinin müxtəlif məsələlərinə dair filosoflardan M.Fukonun, Y.Habermasın, Hegelin, B.Rasselin V.F.Asmusun, E. Kassirerin, Marksın və b. mövzu ilə əlaqədar fikirləri mövcuddur, bunlar arasında paralellər vardır.

Qərb fəlsəfəsində, sonralar isə mədəniyyətində kontrmaarifçilik, daha sonra özünəməxsus ənənəyə malik və xüsusi diqqət tələb edən postmaarifçilik və postmodernizm formalaşdı.

Azərbaycanda maarifçiliyin, maarifçi demokratiyanın sosial-mədəni və fəlsəfi qaynağı ingilis Con Lokkdan tutmuş alman Kanta qədər fransız D.Defo, C.Svift, D.Didro,Volter, Russo, Monteskiyö, alman Göte, Herder, Şiller kimi görkəmli maarifçi-filosofların dünya şöhrətli əsərləridir.

Azərbaycan maarifçiliyinin daha da inkişaf etməsində ictimai həyatın bütün sahələrinin modernləşməsində milli mədəniyyətin, milli ideyanın və sonralar mollanəsrəddinçilik təliminin formalaşmasında M.F. Axundzadə və H. Zərdabi əsas rol oynadılar.

Azərbaycanda demokratik maarifçiliyinin fəlsəfi irsinə müasirlik kontekstdən yanaşan Ulu Öndər Heydər Əliyev bu istiqamətdə aparılan tədqiqatların arasıkəsilməz xarakter daşımasının zəruriliyi haqqında öz tövsiyələrini vermişdir. Azərbaycan ədəbi-bədii fikir xəzinəsi-

nin önəmli tərkib hissəsi olan mollanəsrəddinçilərin fəlsəfi irsi Ulu öndər Heydər Əliyevin fikrincə hər yeni nəslin müraciət etməsi və ona müasirlik prizmasından yanaşmalıdır. Ən başlıcası isə Azərbaycan xalqının milli müstəqil dövlət quruculuğu və yeni mənəvi sərvətləri yaratması prosesində digər klassiklərlə birlikdə Mirzə Cəlil başda olmaqla mollanəsrəddinçilərin zəngin ədəbi-fəlsəfi irsindən faydalanmaq zəruriliyini irəli sürən, onların xalqımızın milli şüurunun formalaşmasındakı rolunu qiymətləndirən Heydər Əliyev demişdir: "Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar" (1, s. 273-274).

Azərbaycan ictimai-fəlsəfi, ədəbi-mədəni fikir tarixində öz yeri və rolu olan "Molla Nəsrəddin" jurnalı bütün Şərqdə ən qabaqcıl, mütərəqqi fəlsəfi ideyalar təbliğ edən, mühafizəkarlığa ağır zərbə vuran, dövrün sosial-siyasi bəlalarını tənqid edən, xalqı maarifləndirən bir orqan kimi dünyada şöhrət qazandı. C. Məmmədquluzadənin redaktorluğu ilə 25 il xalqımızın ictimai-fəlsəfi düşüncəsinə təsir edən "Molla Nəsrəddin" öz ətrafına "mollanəsrəddinçilər" adı ilə tanınan M.Ə. Sabir, Ö.F. Nemanzadə, Ə. Haqverdiyev, Ə. Qəmküsar, Ə, Nəzmi, M.S. Ordubadi kimi yaradıcı qüvvələri birləşdirdi.

Bunlarla yanaşı Molla Nəsrəddin ədəbi məktəbinə jurnalla əməkdaşlıq edən digər satirik ədiblər, publisistlər və rəssamlar da mənsub edilir. Mollanəsrəddinçilərin dövlətçilik uğrundakı istiqlal davamlılığı əsas hərəkətverici qüvvələrindən biri və həmin mübariz yürüşünün lokomotivi hesab edən akademik İsa Həbibbəyli "Molla Nəsrəddin" jurnalının Azərbaycan və Şərqdə, Avrasiyada oynadığı rolu yüksək qiymətləndirərək yazır: "Azərbaycana, türk-müsəlman dünyasına və Qafqaza istiqlal məfkurəsinin, demokratiya ab-havasının ən zəruri və şərəfli yükünü "Molla Nəsrəddin" qatarı çəkib gətirmişdir. Azərbaycanda və Türkiyədəki müstəqillik uğrunda mübarizədə, İrandakı Məşrutə hərəkatında, Xəzərin o tayında milli proseslərin dərinləşməsində, Qafqazda millətlərarası münasibətlərin tənzimlənməsində "Molla Nəsrəddin"in əli vardır.

Özünün dərin ideya-məzmununa, forma və üslubuna görə "Molla Nəsrəddin" dərgisi Qərbin ən tanınmış mətbuat orqanları ilə yanaşı durmaq imkanlarına malikdir. "Molla Nəsrəddin" Azərbaycanda Qərb standartları ilə nəşr olunan mükəmməl Şərq jurnalıdır. Bundan başqa, "Molla Nəsrəddin" Şərqlə Qərbin sintezindən yoğrulmuş ilk Avrasiya dərgisidir. Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikri Avrasiya səviyyəsinə "Molla Nəsrəddin" nərdivanı vasitəsilə çıxmışdır" (2, s. 634).

Mollanəsrəddinçilər Azərbaycan ədəbiyyat, mətbuat ictimai-fəlsəfi fikir tarixində "Molla Nəsrəddin" jurnalının yaratdığı ilk ədəbi məktəb hesab edən onun yüksək ədəbi məktəblərdən fərqli olaraq ədəbi yaradıcılıq istiqamətlərin və janrları ictimai fikri hətta rəssamlıq sənətini də əhatə etdiyini göstərən akademik İsa Həbibbəyli özünün "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik haqqında yazır: "Özündən əvvəl və sonra yaranmış heç bir ədəbi məktəb "Molla Nəsrəddin" ədəbi məktəbi qədər çox yazıçını, şairi və rəssamı öz ətrafında birləşdirə bilməmişdir.

Cəlil Məmmədquluzadənin ardıcıl və böyük səyləri sayəsində XX əsrin əvvəllərində Azərbaycan yaradıcı ziyalılarının "Molla Nəsrəddin" ordusu formalaşmışdır. Bu mübariz, demokratik və milli ziyalı ordusunun Baş komandanı görkəmli Azərbaycan yazıçısı Mirzə Cəlil Məmmədquluzadə idi. Geniş mənada "Molla Nəsrəddin" dərgisi tənqidi-realist ədəbiyyatın möhkəm ədəbi cəbhəsi, mollanəsrəddinçi ədiblərin əsərlərinin çoxcildlik külliyyatıdır. "Molla Nəsrəddin" jurnalı bütün zamanlar üçün aktual və müasirdir" (2, s. 635).

XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində milli mənlik şüurunun formalaşmasında və milli özünüdərketmənin inkişafında mühüm xidməti olan mütəfəkkirlərdən biri də görkəmli maarifçi, şair M. Hadidir. M. Hadinin ictimai-siyasi və fəlsəfi baxışları Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixinin inkişafına böyük təsir göstərmişdi. Onun ictimai-siyasi və fəlsəfi görüşlərində milli özünüdərkdən gələn vətənpərvərlik amalı və onun təbliği, azad müstəqil dövlət haqqında, cəmiyyətdə insanın hüquq və azadlıqlarına dair fikirləri, vətəndaş cəmiyyətinin dövlətçiliyin inkişafında rolu haqqında fəlsəfi mühakimələri bu gün də öz aktuallığını itirməmişdir.

Milli özünüdərk prosesində «Azərbaycan romantiklərindən, xüsusilə M. Hadi yaradıcılığında vətənpərvərlik, hürriyyət, azadlığa çağırış ideyaları ana xətt təşkil edirdi. M. Hadiyə görə, ölkə vətəndaşlarının ictimai-siyasi hadisə və proseslərin subyektinə və iştirakçısına çevrilməsi üçün onlarda siyasi mədəniyyətlə bərabər, siyasi şüuru da formalaşdırmaq lazımdır. O, insanı təbiətən azad varlıq sayır və azadlıq insanın təbii mahiyyətindədir deyirdi. "Məhəmməd Hadiyə görə, insan yaranmış olsa da, çox çevik, müstəqil düşünən, hərəkətlərində sərbəst və həm də yaradandır, qurandır. İnsan elmin, maarifin gücü ilə dünyanı dəyişdirir; həm zinətləndirir, həm də xarabaya çevirir. Elm-maarif və səyin, qeyrətin, zəhmətin nəticəsidir.

Dünyanı bəzəyən insan birinci növbədə öz həmcinsinin qəlbini, vicdanını, mədəniyyət, elm və irfanla gözəlləşdirməlidir. Cəhaləti yalnız maarif məhv edə bilər, insanın idrak düzgünlüyünü yalnız maarif silib parlaq hala sala bilər" (4, s. 146). XX əsrin əvvəllərində Rusiya imperiyasının bir sıra yerlərində inqilabi hərəkatın başlanması və geniş vüsət alması M. Hadi yaradıcılığında əsas yer tuturdu. Onun fikrincə bu inqilablar ölkədə milli ictimai şüurun oyanmasına, milli özünüdərkə təkan verəcək və geniş xalq kütlələrini sosial-siyasi fəaliyyətə qoşulmağa çağıracaqdır. M. Hadi öz əsərlərində elm ilə cəhaləti, maarif ilə nadanlığı üz-üzə gətirir və belə bir qənaətə gəlir ki, elmin, maarifin yayılması insanların həyatının daha yaxşı qurulması üçün ciddi amildir.

"Elm insana paxlava yedirir" adlı məqaləsində cəhalətlə maarifi müqayisə edib bunların insana verdiyi nəticələr barəsində yazır: "Elm insana şəkərləmə yedirir, cəhalətin yedirəcəyi isə zəhrimari-fəlakətdir" (3, s. 214). O, xalqın milli özünüdərkini elm və maarifin inkişafında görürdü. Beləliklə, vətənə, millətə, insanlığa sevgi, milli mənlik şüuruna, milli özünüdərkə, milli-mənəvi dəyərlərə hörmət, soykökə ehtiram Məhəmməd Hadi yaradıcılığının əsasını təşkil edirdi.

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində özünə məxsus yeri olan, xalqın milli özünüdərk prosesində siyasi şüurunun formalaşmasında və milli özünüdərk ideyalarının inkişafında mühüm xidməti ilə seçilən şəxsiyyətlərdən biri də görkəmli ictimai-siyasi xadim Nəriman Kərbəlayi oğlu Nərimanov idi. Onun dünyagörüşünün formalaşması üç mərhələ ilə səciyyələnir: maarifçilik, inqilabi-demokratizm və marksizm. O, ictimai-siyasi problemləri əks etdirən çoxlu dəyərli əsərlərin müəllifidir. Həmin əsərlərdən "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadır və Sona" xüsusilə diqqəti cəlb edir. Bu əsərlərlə yanaşı mütəfəkkirin yaradıcılığında sosial və mədəni məsələlərə, milli özünüdərkə aid ictimai-siyasi və fəlsəfi məzmunlu məqalələri də mühüm yer tutur.

Mütəfəkkirin "Bir kəndin sərgüzəşti" hekayəsindəki milli özünütənqid daha kəskindir, həqiqət daha açıqdır, çünki burada qonşu timsalında məkrli, yırtıcı düşməni olan bir xalqın avamlığının, sadəlövhlüyünün, ətalətinin daha acınacaqlı nəticələrə səbəb olduğu onun bir millət kimi hüququnun, mənliyinin tapdalanmasına, başqa xalqlar arasında hörmətsizliyinə, dəhşətli bəlalara düçar olmasına aparıb çıxardığı göstərilir. Sakit tərzdə, təmkinlə və hətta bir qədər də soyuqqanlıqla nəql edilən bu hekayə aydın məzmunu ilə şəffaf görünsə də başdan –

ayağa rəmzlərdən ibarətdir. Əsas rəmz Qafqaz kəndlərindən birinin camaatının "Ata-babalardan bir-birinə düşmən gözü ilə baxan" İnəmre və Namləsüm adlanan iki məhəllənin adlarında gizlənmişdir. Rəmzi açmaq üçün vaxtilə məhəllələrin abadlığına çalışmış iki böyük adamın adı kimi təqdim edilən bu əcayib sözləri yalnız tərsinə oxumaq kifayətdir: İməmre, yəni erməni, Namləsüm, yəni müsəlman, o vaxtlar azərbaycanlılara belə müraciət edirdilər. Bunu bildikdən sonra o biri rəmzləri açmaq artıq çətin deyil" (8).

Mütəfəkkirin din haqqında fikirləri də mühüm əhəmiyyət kəsb edir. N.Nərimanov "Tibb və İslam" əsərində yazır: "İslam əqli və təbii dindir. Əsl dindar heç bir elmdən qorxmaz, çünki elm təbiət aləmindən alınmışdır. Ancaq bu şərtlə ki, elmləri oxuyan şəxs gərəkdir öz dilini və dinini bilsin" (10, s. 22). Mütəfəkkirin dinə münasibəti haqqında tədqiqatçı alim Müstəqil Ağayev "XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi" adlı monoqrafiyasında yazır: "Nəriman Nərimanov din haqqında yazdığı əsərlərdə dinə mədəni-mənəvi və sosial bir hadisə kimi baxmış və onun cəmiyyətin tərəqqisi və inkişafının müəyyən bir mərhələsində meydana gəldiyini qeyd etmişdir.

Nəriman Nərimanovun dinə münasibəti dini bütövlükdə mürtəce və zərərli bir hadisə kimi dəyərləndirən ifrat ateistlərin münasibətlərindən çox fərqlidir. O, din anlayışına ciddi elmi mövqedən yanaşır, dinin daxili aləminin mürəkkəbliyini tərkibində gerçəklikdən uzaq düşmüş ünsürlərlə yanaşı, real əsasları olan sağlam mənəvi-ruhi dəyərlərin də olduğunu qeyd etmiş, yeri gəldikcə, bu dəyərlərin ümumbəşəri mənasını öz yazılarında izah etmişdir.

Nəriman Nərimanova görə, din məhz özündə cəmləşdirdiyi mütərəqqi, sağlam mədəni-əxlaqi dəyərlərinə görə cəmiyyətdə, insanların həyatında böyük rol oynayır, tərəqqinin mühüm amili kimi çıxış edir" (5, 48-49). Qeyd etmək lazımdır ki, islam ideyalarının yeni dövrə uyğunlaşdırılması, yeniləşdirilməsinə, Quranın yeni oxunuşuna və şərhinə ehtiyacın olduğunu M.F. Axundovdan bəri XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif mövqelərdən, müxtəlif ictimai təmayüllərin təmsilçiləri qeyd etmişlər. Bu məqam N. Nərimanovun irsində də özünü göstərir (66, 179). N.Nərimanov din məsələsində olduqca ehtiyatlı olmağı tövsiyə edirdi. Azərbaycan K(b) P-nin 1920-ci ilin oktyabrında keçirilən II qurultayında. Bu dövrdə cəmiyyət həyatının ictimai məsələlərinə diqqət yetirən N. Nərimanov dinə münasibətdə ittihadi–islamçılara nisbətən daha rassional mövqe tuturdu.

N.Nərimanov müəyyən məsələlərdə pantürkistlər, panislamistlərlə həmrəy olmuş və yaxud islama münasibətdə onların baxışlarında ümumi cəhətlər şəksiz nəzərə çarpır. N.Nərimanov çarizmin istibdad üsul-idarəsinə dərin nifrət bəsləyirdi. O, xalqlar həbsxanası adlandırılan çar Rusiyasının bütün siyasətini, şərq istibdad üsuli-idarəsinin mənfur təbiətini kəskin tənqid edir, bu idarəçilik sistemlərinin hər ikisinin humanizmə, insan hüquqlarına zidd qayda qanunlarına nifrətini açıq şəkildə bildirirdi. N.Nərimanov bütün həyatını və mənalı fəaliyyətini xalqının azadlığı, xoşbəxtliyi uğrunda mübarizəyə, onun milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafına həsr etmişdir. Bu dövrdə «Azərbaycan xalqının qonşu xalqlara nisbətən siyasi, iqtisadi, mədəni və milli cəhətdən geridə qalması, daxili və xarici işlərini müzakirə edə bilmək üçün məclislərinin olmaması, müxtəlif təşkilatlarda, məclislərdə mötəbər bacarıqlı milli nümayəndə və kadrların yoxluğu Nəriman Nərimanovu millətini sevən, onun yüksəlişinə, tərəqqisinə var qüvvəsi ilə çalışan, xalqının qeyrətini çəkən bir övlad kimi, bir vətəndaş kimi həmişə düşündürmüşdür. Onun ictimai-siyasi və fəlsəfi görüşlərində xalqın milli mənlik şüurunun oyanması və milli özünüdərkilə yanaşı dövlət məsələsi də əsas yer tuturdu.

"Nərimanov Azərbaycan xalqının milli-mədəni tərəqqisinə, din problemlərinə, Azərbaycan dilinə dövlət statusu verilməsinə, milli ziyalılara və təhsilə xüsusi diqqət yetirmiş, bütün bunlara milli dövlət quruculuğunun tərkib hissəsi kimi baxmış, milli adət-ənənələri qorumuş,

elm, maarif və mədəniyyətin inkişafına qayğı göstərmişdir. Onun bu fəaliyyəti birmənalı qarşılanmamış, əleyhinə geniş kampaniya aparılmışdır. Nərimanov fəaliyyətə başlayarkən Azərbaycan artıq İrəvan və Dərbənd ərazilərini itirmiş, Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi isə mürəkkəb olaraq qalırdı. Onun qətiyyəti sayəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdır. O, Naxçıvanın Azərbaycandan təcrid olunmaması üçün Mehridən yol almaqdan ötrü ardıcıl mübarizə aparmış, Zəngəzurun isə Azərbaycandan ayrılmasının qarşısını ala bilməmişdir. Azərbaycanı Sovet Rusiyasının müttəfiqi, müstəqil bir respublika kimi görən Nərimanov qarşılıqlı etimad əsasında mərkəzlə Azərbaycan arasında siyasi və iqtisadi hüquqların bölgüsü, Bakının milli simasını itirməsinin qarşısının alınması, milli və dini ənənələrin qorunması uğrunda ardıcıl mübarizə aparmışdır.

Mərkəzin Azərbaycana qərəzli münasibətini, ruslara, ermənilərə və b. qeyri millətlərə xüsusi imtiyazların verilməsini pisləyərək, "kommunist cildinə girmiş daşnakların» məkrli fəaliyyətini ifşa etmişdir. O, Azərbaycan nümayəndəsinin bilavasitə iştirakı olmadan mərkəzdə Azərbaycana aid heç bir məsələnin müzakirə edilməməsini, mərkəzi strukturlarda Azərbaycanın tam səlahiyyətli nümayəndələrlə təmsil olunmasını, neft istehsalına və satışına Azərbaycan hökumətinin nəzarətinin artırılmasını tələb etmişdir" (6, s. 262).

N. Nərimanovun ictimai-siyasi və fəlsəfi görüşlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, "onun dünyagörüşü Azərbaycan həyatının irəli sürdüyü vəzifə və tələblərlə, xalqımızın ictimai və milli zülmə qarşı mübarizəsi ilə sıx əlaqədə təşəkkül tapmışdır" (7, s. 16). Eyni zamanda N. Nərimanov milli özünüdərk prosesində xalqın, ölkənin tərəqqisini, dininin, dilinin, mədəniyyətinin inkişafını millətin hürriyyətilə bağlayır və mütəfəkkirə görə istibdad kökündən yox olmayınca, bu mümkün deyildir. N. Nərimanova görə, fəsadlar törədən istibdadı yıxmaq və hürriyyətə çatmaq yolunda mübarizə zəruridir. "Təbiidir ki, millətin özü siyasi, iqtisadi azadlıq əldə etməzsə, onun dininin, dilinin, ümumiyyətlə vicdanının azadlığından danışmağa belə dəyməz" (11). N. Nərimanova görə, millətin özünüdərketməsi və özünütanıması onun birliyinin və təşəkkülünün vacib şərtidir. Ona görə özünüdərketmə millətə inkişaf və tərəqqi yolunu göstərir. Onun fikrincə, bu ideya müxtəlif cəmiyyətlər vasitəsilə yayılıb reallaşa bilər. N Nərimanovun milli özünüdərk ideyalarının inkişafında əsas amillərdən biri olan dil haqqında fikirləri də çox mühüm əhəmiyyət kəsb edir.

N. Nərimanova görə, ana dili millətin əsas atributudur, onsuz millətin nə xüsusi məsləki, nə də "pak milli hissiyyatı" ola bilər. Odur ki, daim onun inkişafının qayğısına qalır, onu qoruyur, başqalarından da bunu tələb edirdi. N.Nərimanov dili xalqın milli mənlik şüurunun və milli özünüdərk ideyalarının inkişafında əsas amil hesab edirdi. Onun irsi bu gün də Azərbaycan xalqının milli özünüdərk və milli özünəqayıdış mənbələrindən biridir.

N. Nərimanovun tərbiyə haqqındakı fikirləri içərisində diqqəti cəlb edən cəhətlərindən biri də verilən tərbiyənin tamlığını və ardıcıllığını tələb etməsidir. N. Nərimanova görə, tərbiyəçi tərbiyə işində ardıcıl olmalı, uşağa verilən tələblərdə natamamlığa yol verməməlidir.

N. Nərimanov təbliğ etdiyi vətənpərvərliyi məhdud mənada deyil, geniş mənada götürürdü. O, öz sevimli vətəninin gələcək istiqlaliyyətini və xoşbəxtliyini heç bir vaxt başqa xalqın səadətindən ayırmır, onların birini digərinə qarşı qoymur, əksinə, bütün xalqların səmimi və mehriban yaşamaları uğrunda ardıcıl mübarizə aparırdı. Onun fikirlərində fərdin mənafeyi Vətən və xalqın mənafeyi ilə birləşdirilir. O yazırdı: Siz özünüzü bir millətdən hesab edirsinizsə, özünüz üçün müəyyən bir vətən var isə, həmin millətin, həmin vətənin dərdi, qəmi sizin dərdiniz, qəminizdir və ya bir millət və ya Vətən üçün ümumi dərd və qəm olacaqdır.

N. Nərimanovun fikrincə, hər iki tərəf bir-birinin mənafeyini müdafiə etməlidir. Yəni

"Vətən, millət, xalq üçün, ayrı-ayrı üzvlər üçün, ayrı-ayrı şəxslər isə Vətən, millət üçün, onun tərəqqisi üçün çalışmalıdır". Nərimanov söz ilə deyil, özünün gündəlik əməli fəaliyyətilə Vətənin tərəqqisinə çalışanları yüksək qiymətləndirirdi.

N. Nərimanov vətənpərvərliyi əmək ilə, həm də hamının xeyrinə olan əmək ilə əlaqələndirir və Vətənin bütün övladlarını onun tərəqqisi yolunda çalışmağa çağırır. Onun fikirlərində həm fiziki, həm də zehni əmək yüksək qiymətləndirilir. O, bəşəriyyətin səadətini əməkdə görür, yüksək əxlaqi keyfiyyətlərin yaranmasında əməyə üstünlük verirdi.

N. Nərimanov gənc nəslin əmək tərbiyəsi işində məktəbin rolunu ayrıca qeyd edirdi. Azərbaycan müəllimlərinin qurultayında N. Nərimanov deyirdi ki, əməyin nə olduğunu gənclərə bildirən məktəbdir. Bu da ki, bizim həyatımız və bütün fikrimizdir. Çünki biz yer üzərində ancaq zəhmətin hökmranlığının bərqərar olmasına çalışırıq. Öz zəhməti ilə Vətənə xidmət etməyi, o, ən yüksək mənəvi borc hesab edirdi.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan demokratik maarifçilərinin fəlsəfi dünyagörüşündə müasirlik ideyaları inkişaf etmiş, bu prosesdə Azərbaycanın maarifçi yaradıcı ziyalıları mühüm rol oynamışlar.

**Məqalənin aktuallığı.** Demokratik maarifçilik fəlsəfəsində müasirlik ideyalarının, Azərbaycan maarifçiliyinin zəngin dövrünün inkişaf qanunauyğunluqlarının, fəlsəfi ideyaların aşkar edilməsinin araşdırılması məqalənin aktuallığını təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Demokratik maarifçilərin ideyalarının müasirlik baxımından dəyərləndirilməsi məqalənin elmi hesab olunmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Demokratik maarifçilərin fəlsəfi irsi doktorantlar, eləcə də ali məktəblərin magistr və tələbələri üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Əliyev H. Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş gecədəki nitqindən, 28 dekabr 1994-cü il // Heydər Əliyev və mədəniyyət. Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. Üç cilddə. I cild, 1969-1982-ci illər, 1993-1996-cı illər, Bakı: Nurlar, 2008.

2. Həbibbəyli İ.Ə. Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik // Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007.

3. Ağamirov M.M. Məhəmməd Hadinin fəlsəfəsi. Bakı: Azərnəşr, 1981.

4. Ağayev M. Azərbaycan demokratik fikrində insan konsepsiyası. Bakı: Nurlan, 2009.

5. Ağayev M. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi. Bakı: Nurlan, 2008.

6. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005.

7. Hacıyeva A. Hermenevtika Şərqdə (fəlsəfə tarixi kontekstində). Bakı: Adiloğlu, 2006.

8. Hacıyeva A. Milli ideya millətin mənəvi varlığının substansiyası kimi: Nəriman Nərimanovun əsərləri üzərində düşüncələr. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. «Elmi əsərlər» Beynəlxalq elmi-nəzəri jurnal. №2(15). Bakı: 2010.

9. İbadov N.S., Eyyubov İ.Ə. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda siyasi fikir. Bakı: BDU-nun nəşri, 1996.

10. Qəhrəmanov B. Doktor Nərimanov. Bakı: Azərnəşr, 1990.

11. http://www.azerros.ru/pnhtml/100_nar.htm - Narimanov N .K.

12. http://iph.ras.ru/uplfile/philec/gou/kant.pdf.

**У.К. Балакишиев, Я.Ш. Кулиева**

## Идеи современности в философии демократических просветителей Азербайджана

### Резюме

В статье исследованы социально-философские основы, высокие ценности философского мировоззрения азербайджанских демократических просветителей. Их социально-философское наследие проанализировано с точки зрения современности и изучено их место в истории философской мысли и в системе современных ценностей.

**U.K. Balakishiev,Y.S. Kuliyeva**

## Ideas of modernity in the philosophy of Azerbaijan's democratic enlighteners

### Summary

The article examines the socio-philosophical foundations and high values of the philosophical worldview of Azerbaijani democratic educators. Their socio-philosophical heritage is analyzed from the point of view of modernity and their place in the history of philosophical thought and in the system of modern values is studied.

**Redaksiyaya daxil olub:** 22.08.2020